# On bir ayın sultanı—Ramazan

**«Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) pis əməllərdən çəkinəsiniz.**

**Bəqərə surəsi, 183.**

Ramazan ayı möminlər üçün mənəvi dəyər və çox böyük bir rəhmət mövsümüdür. Əvvəli rəhmət, ortası məğfirət, sonu cəhənnəmdən qurtuluş olan bu ayın içində min aydan daha xeyirli olan «Qədr gecəsi» vardır. Bu gecə ramazanın son 10 gününün içərisindədir. Bəzi rəvayətlərə görə 10 günün tək günlərindədir.

İnsanlığı qaranlıqdan qurtulub aydınlığa aparan dinimizin müqəddəs kitabı Qurani Kərim məhz bu ayda yer üzünə endirilməyə başlamışdır.

Oruc əxlaqımızı gözəlləşdirir. Oruc qalxandır, günahlardan qoruyur. Oruc mərhəmət duyğuları yaradır. Oruc insanı saflığa çağırır. Çünki Peyğəmbərimiz (s.a.v) «Oruc tutun, sağlam olun» buyurmuşdur. Hər bir malın zəkatı olduğu kimi bədənin zəkatı da orucdur. Oruc həm də insana səbirli olmağı öyrədir.

Əfv və bağışlaması bol olan Ulu Tanrı buyurmuşdur: «Oruc mənim üçündür, onün mükafatını da mən verəcəyəm».

Bir az da orucu pozan hallar barədə. Qəsdən yemək və içmək, siqaret çəkmək və çərəz kimi başqa şeylər qəbul etmək orucu pozar. Lakin unudaraq yeyib-içmək orucu pozmaz. Bu barədə Allah Rəsulu (s.ə.s) belə buyurmuşdur: «Bir kimsə unudaraq yeyib-içərsə, orucu tamamlasın, çünki Allah özü onu yedirib içirtmişdir».

Oruc tutan şəxsin cinsi münasibətdə olması onun orucunu pozar.

Mədənin qidalanması üçün vurulan iynələrin hamısı orucu pozar. Oruc olan zaman öpmə, qucaqlama və buna bənzər hallar orucu pozar.

Səfərdə olanlar oruclarını tutmaya bilərlər. Lakin taqəti çatanlar oruclarını tutsa yaxşıdır.

Tutduğunuz orucları Allah qəbul etsin!

**«Qəbələ».**

## Qəbələ rayonu üçün 2013-cü il Ramazan ayı *TƏQVİMİ*

| Ramazan | Iyul/ Avqust | Sübh İMSAQ | Günəşin doğuşu | Zöhr Günorta | Əsr İkindi | Məğrib Axşam İFTAR | İşa Yatsı Təravih |
|---|---|---|---|---|---|---|---|
| 10 | 19 | 05:08 | 06:35 | 13:58 | 18:34 | 21:30 | 23:10 |
| **11** | **20** | **05:09** | **06**:35 | **13:58** | 18:34 | **21:29** | **23:09** |
| 12 | 21 | 05:10 | 06:36 | 13:58 | 18:33 | **21:29** | 23:08 |
| **13** | **22** | **05:11** | **06**:37 | **13:58** | 18:33 | **21:28** | **23:06** |
| 14 | 23 | 05:13 | 06:38 | 13:59 | 18:33 | **21:27** | 23:05 |
| 15 | 24 | 05:14 | 06:39 | 13:59 | 18:32 | **21:26** | 23:04 |
| 16 | 25 | 05:15 | 06:40 | 13:59 | 18:32 | **21:25** | 23:02 |
| 17 | 26 | 05:16 | 06:41 | 13:59 | 18:31 | **21:24** | 23:01 |
| 18 | 27 | 05:17 | 06:42 | 13:59 | 18:31 | **21:23** | 22:59 |
| 19 | 28 | 05:19 | 06:42 | 13:59 | 18:31 | **21:22** | 22:58 |
| 20 | 29 | 05:20 | 06:43 | **13:58** | 18:30 | **21:21** | 22:56 |
| 21 | 30 | 05:21 | 06:44 | **13:58** | 18:30 | **21:20** | 22:55 |
| 22 | 31 | 05:23 | 06:45 | **13:58** | 18:29 | **21:19** | 22:53 |
| 23 | 1 | 05:24 | 06:46 | **13:58** | 18:29 | **21:18** | 22:52 |
| 24 | 2 | 05:25 | 06:47 | **13:58** | 18:28 | **21:17** | 22:50 |
| 25 | 3 | 05:26 | 06:48 | **13:58** | 18:28 | **21:16** | 22:48 |
| 26 | 4 | 05:28 | 06:49 | **13:58** | 18:27 | **21:14** | 22:47 |
| 27 | 5 | 05:29 | 06:50 | **13:58** | 18:26 | **21:13** | 22:45 |
| 28 | 6 | 05:30 | 06:51 | **13:58** | 18:26 | **21:12** | 22:43 |
| 29 | 7 | 05:31 | 06:51 | 13:58 | 18:26 | 21:12 | 22:43 |
| 30 | 8 | 05:32 | 06:52 | 13:57 | 18:25 | 21:11 | 22:42 |
| 9 avqust Ramazan bayramıdır. (Bayram namazı 08:00) | | | | | | | |

***Ramazan bayramınızı təbrik edirik!***

### İftar duası

Allahım! Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim.

Sənin nemətlərinlə orucumu açdım və sabahkı Ramazan orucuna da niyyət etdim. Mənim keçmiş və gələcək günahlarımı bağışla.

# Çiliklənmiş ömür (ESSE)



Düşünürəm ki, kiminsə sənə əziz olması üçün onun səninlə qohumluq əlaqəsinin vacibliyi o qədər də şərt deyildir. Haqqında söhbət açacağım Cəsarət müəllim də mənim üçün bir o qədər əziz və əvəzedilməz, əlçatmaz bir yoldaş, bir qardaş, yaxın həmkar idi.

Bu sətirləri yazarkən acı göz yaşlarımı gizlədə bilmədim.

Biz onunla səkkiz ilə yaxın idi ki, tanış idik. Mənim ondan iş təcrübəm çox idi. Tez-tez mənə çəkinmədən zəng edər, bilmədiklərini öyrənməklə məsləhətlər alardı. Gözlənilmədən...

28 aprel 2013-cü il tarixdə aldığım qəfil xəbər məni sarsıtdı və həyat təqvimimə qara hərflərlə yazıldı: Cəsarət Abdulkərimov qəflətən vəfat etmişdir.

Cəsarət müəllimin arzuları çox idi. Qurub-yaratmaq, həyat eşqi olduqca güclü idi. Arzularından biri də kiçik qızı Azərini məktəbli libasında görməkdi.

Bu sətirləri ona görə qələmə aldım ki, bəlkə acılarımı bir az yüngülləşdirəm. Həmin sətirləri yazdıqca qəlbim fəryad çəkirdi. Cəsarətin böyüklüyünü oxuculara çatdırmaqda aciz qaldığımı hiss edirəm. Ancaq yaza bildiklərim qəlbimə yenə bir təsəllidir. O, daim sevənlərinin və tanıyanlarının qəlbində yaşayaqdır.

Allahdan ona rəhmət, sevənlərinə isə səbir diləedim. Allah Cəsarətə rəhmət eləsin.

**Simuzər CABBAROVA,**
**Aydınqışlaq kənd İƏN-nin müavini.**

# "Qəbələ" qəzetinin yaradıcı kollektivinə

**Hörmətli redaksiya işçiləri!**

Sizi Milli Mətbuat və Jurnalistika günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, fəaliyyətinizdə uğurlar, müvəffəqiyyətlər arzulayıram.

"Qəbələ" qəzeti rayonumuzun güzgüsüdür. Rayonda gedən sosial-iqtisadi inkişaf, hər bir sahədə həyata keçirilən tədbirlər məhz bu qəzetdə geniş işıqlandırılır. Sizə qarşınızda duran şərəfli işlərin həyata keçməsində uğurlar diləyirəm.

**Xəyalə İSAYEVA,**
**Heydər Əliyev mərkəzinin direktoru.**

# ELANLAR


«NTEV» MMC Qəbələ Ticarət kompleksinə məxsus 1 ədəd möhür və ştamp **itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26.05. 1998-ci il tarixli 10 saylı qərarla rayonun Yengicə kənd sakini Nəzirova Sevda Abduhəlim qızının adına verilmiş JN-096 A №-li şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.

---

Dövlət Əmlakının hüquqi və fiziki şəxslərə satılması haqqında **Əsədov Mübariz Varis oğlunun və ailə üzvlərinin** adına 7 aprel 1997-ci ilt tarixdə verilmiş 003434 №-li mülkiyyət üzərində sahiblik hüququnu təsdiqləyən şəhadətnamı **itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən 15 may 1998-ci il tarixli 9 nömrəli qərarla **Həmzəlli kənd sakini Quliyev Müsavər Yusif oğlunun və ailə üzvlərinin** adına verilmiş JN 282 F saylı (kod 40605018) Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 nömrəli qərarla Qaradeyin kənd sakini **Yusifov Allahverdi Umar oğlunun və ailə üzvlərinin** adına verilmiş JN 032 A (kod 40610028) Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.


## Allah rəhmət eləsin!

Qarabağ Müharibəsi Əlilləri Veteranları və şəhid ailələri ictimai birliyinin sədri İ. Mustafayev cəmiyyət adından Uludaş kənd sakini I qrup Qarabağ müharibəsi əlili **MUSAYEV ŞÖHRƏT KAMİL OĞLUNUN** faciəli vəfatından kədərlənir və ailə üzvülərinə başsağlığı verir.


Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi A. C. Cəlilov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2110.